*Ulucay Akif*

# Əlimdə qalan altı qoşanın əhvalatı



*Məhəlləmizdə Əlövsət adlı bir kişi var. Ona kişi dediyim üçün bəribaşdan bütün kişilərdən üzr istəyirəm, çünki, o, bu dünyada tanıya biləcəyiniz ən əclaf adamdır.*

*Əclaf sözünə görə isə heç kimdən üzr istəmirəm. Əgər heç əclaflar əclaf olduqları üçün bizdən üzr istəmirsə, biz niyə onlara əclaf dediyimiz üçün üzr istəməliyik?*

*Əlövsət dayının niyə əclaf olduğunu soruşursunuz? Deyim də...Amma birinci bu tip dayılardan danışmaq istəyirəm.*

*Mütləq ki, sizin də məhəllənizdə elə dayılar var. Məsələn, məhəllədə qadınların söhbətlərinə qoşulub qeybət edən, ya da hansısa bir qadın haqqında yalandan ağzına gələni danışan, kiminsə qazandığı pulun, kiminsə işinin, kiminsə övladının paxıllığını çəkən nakişilər.*

*Harada işlədiyi, ümumiyyətlə, işləyib-işləmədiyi məlum olmayan, amma mütləq ki, bahalı bir cipi olan dayılar.*

*Yaxşı fikirləşin. Çox güman sizin məhəllənizdə də belə dayılar var. Cip məsələsində yanılmış ola bilərəm.*

*Bax, Əlövsət dayı da o dayılardan biridir. Həmişə özünü hər şeydən başı çıxırmış kimi aparan, bütün mövzulara burnunu soxan, amma bəlkə heç Əlövsət adının "v", yoxsa "f" hərfi ilə yazıldığını da bilməyən mənasız bir adamdır. Düzü, Əlövsət adının "v", yoxsa "f" hərfi ilə yazıldığını heç mən də bilmirəm. Siz bilirsiniz?*

*Nəysə...Mövzudan yayınmayaq. Həm də ki, ona əclaf deməyimi izah etməyə səbəb görmürəm. Çünki əclaf adamın üzünə baxan kimi əclaf olduğunu hiss edə bilirəm. Siz hiss etmirsiniz?*

*Keçən gün dostlarımla məhəlləmizdəki "Veteran" çayxanasında oturub domino oynayırdıq. Təzəlikcə kafemizdə nərd və domino oynamaq üçün əlavə pul almağa başlayıblar.*

*Yan masada yaşlı dayılar söhbət edirdi. Qonşumuz Əlövsət dayı da elə bu məsələyə görə çox əsəbləşmişdi:*

*- Necə yəni dominoya görə əlavə pul verməliyik?! Belə şey olar?! Öz kafemizdə də dominonu pul verib oynayacağıqsa, ta noldu?! Belə olmaz!*

*Hamı Əlövsət dayıya "düz deyir də!" baxışı ilə tamaşa edirdi. Onların gözlərindən heyranlıq hissini rahatlıqla oxumaq olurdu. Hiss olunurdu ki, Əlövsət dayı da bu baxışlardan yetərincə məmnundur və bu baxışlar ona getdikcə daha da güc verirdi. Onun domino barəsindəki bu nitqi mənə Ərdoğanının çıxışlarını xatırladırdı. O, getdikcə daha coşur, daha da ərdoğanlaşırdı:*

*- Biz neçə ildir bura gələn daimi müştərilərik! Bura bizim kafemizdir! Heç kim bizə dominonu pulla verə bilməz!*

*Cümlələri çox əsəbi və bir o qədər də gözəl intonasiya ilə deyirdi. O, bəzən əsl siyasətçilər kimi nitqində ritorik suallardan da istifadə edirdi:*

*- Axı niyə susursunuz?! Belə getsə, birazdan bizdən bu kafedə oturmaq üçün də ayrıca pul alacaqlar! Niyə hər şeyə göz yumuruq! Müdiriyyətə şikayət eləmək lazımdır! Susmaq olmaz!*

*Digər masalardan dalğa-dalğa "düz deyir də", "düz deyir", "halaldı vallah" kimi dəstək cümlələri gəlməyə başlamışdı. Həmin o dalğalar Əlövsət dayının masasına sığal çəkib geri qayıdırdı. Bütün masalarda domino və nərd səsləri kəsilmişdi.*

*Birdən yerimdən qalxdım və Əlövsət dayını alqışlamağa başladım. Kafedəki digər adamlar da mənə qoşuldu. Əlövsət dayıya yaxınlaşdım:*

*- Eşq olsun, Əlövsət dayı! Düz deyirsiniz! Müdiriyyətə etirazımızı bildirməliyik!*

*Əlövsət dayı məmnun ifadə ilə mənə baxdı. Sözümə davam elədim:*

*- Əlövsət dayı, qalxın gedək şikayətimizi bildirək! Mən tək getsəm veclərinə olmayacaq.*

*Əlövsət dayının rəngi bir anda dəyişdi. Üzündəki müdriklik və məmnunluq hissi bir anın içində yoxa çıxdı və mağmın Əlövsət dayı siması geri qayıtdı:*

*- Bala, mən yaşlı adamam. İndi gedib müdirlə domino söhbəti eləsəm ayıb olar. Siz cavanlar gedin deyin, sizdən qorxarlar. - deyib öskürməyə başladı.*

*Amma mən bu mövzunu belə asan bağlaya bilməzdim:*

*- Düz deyirsiz, Əlövsət dayı, siz ağsaqqal adamsınız. Gərək biz gənclər gedək.*

*Əlövsət dayı canını qurtardığını düşündü, tam rahatlayacaqdı ki, masalardan birində əyləşən Əlövsət dayının oğlu Rəşadnan Hikmətə tərəf döndüm:*

*- Gəlin gedək mənlə şikayət etməyə. Hər dəfə dominoa görə pul verməyəcəyik ki!*

*dedim:*

*Əlövsət dayı tez yerindən qalxdı:*

*- Ulucay, onları aparma. Onlar heç domino, nərd oynamır axı. Domino oynayanları apar.*

*Tamam əsəblərim pozuldu:*

*- Onlar oynamırlar, mənim də pulum var, pulumu verib dominomu oynayıram! Neyləyirəm başımı ağrıdıb?!*

*Öz masama qayıdıb dostlarımla domino oynamağa davam etdim.Ara yerdə əsəbdən əlimdəki altı qoşanı öldürdüm.*

*Tfu sənə, Əlövsət dayı!*